# ŞEYXÜLİSLAM MƏQAMI - XALQIMIZIN İFTİXARI

*"Və bir də öndə olanlar, onlar Allaha yaxındırlar".*
**"Vaqiə" surəsi, ayə 10.**



"Şeyxülislam Allahşükür Paşazadə bütün həyatı boyu cəmiyyətdə mənəvi-əxlaqi dəyərlərin və milli həmrəyliyin bərqərar olunması yolunda səmərəli fəaliyyət göstərmiş, yaxın tarixi keçmişdə xalqımızın yaşamış olduğu taleyüklü hadisələr zamanı həm dini rəhbər, həm də ictimai xadim kimi yüksək vətənpərvərlik və əsl vətəndaş mövqeyi nümayiş etdirmişdir. O, ölkəmizdə beynəlxalq hüquq normalarına və mütərəqqi tarixi ənənələrə əsaslanan dövlət-din münasibətlərinin formalaşması, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması və təbliği sahəsində səmərəli xidmətlər göstərməkdədir". Qafqazın ali dini rəhbəri, müsəlman dünyasının nüfuzlu şəxsiyyəti, xalqımızın müdrik oğlu Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illik yubileyinin qeyd edilməsi haqqında möhtərəm Prezident cənab İlham Əliyevin bu il aprelin 9-da imzaladığı Sərəncamda belə deyilir.

Şeyxülislam həzrətlərinin həyatı və fəaliyyəti haqqında yazmaq, onun uca şəxsiyyətinin hərtərəfli və dolğun təsvirini yaratmaq çətindir. Allah-təalaya xidmətə, müqəddəs dinimizə, bəşəri xeyirxahlığa, doğma xalqının mənəvi-əxlaqi dəyərlərinin zənginləşməsinə həsr olunmuş bu ömrün həm maraqlı, həm də ibrətamiz səhifələrini vərəqlədikcə, hansı xarakterik cizgini, hansı hadisəni önə çəkmək, nələri daha qabarıq, daha iri planda göstərmək barədə düşünməli olur, onların məna və siqlətini tam aydınlığı ilə açmaq üçün lazımi ifadə vasitələri tapmağa çalışırsan. Azərbaycanın ictimai-mənəvi, dini mühitinin Hacı Allahşükür Paşazadənin şəxsiyyəti və fəaliyyəti ilə sıx bağlı olan son qırx illik dövrü ciddi sınaqlar görüb. Şeyxülislam həzrətləri bunların hər birindən mərd-mərdanə, qürurla, şərəflə keçib, ən başlıcası, əsl din-iman adamı kimi daim xalq ilə birlikdə olub, xalqın mənafeyini qoruyub, xalqa xidmət edib.

"...Üçüncü-dördüncü sinifdə oxuyarkən 12 kilometr daşlı-kəsəkli, kol-koslu yolu piyada gedib Quran oxumağı öyrənir, sübh açılana qədər geri dönürdüm. Çətin günlər idi. Düşünürəm, o vaxt çəkdiyim əziyyətlərin əvəzidir ki, bu gün Allah-təala mənə qaytarır. Mən aclığı da görmüşəm, pulsuzluğu da... Palçıq yoğurmaq, kərpic kəsmək, daş-divar hörmək, vağzalda yük daşımaq - bilirəm nədir. Bu əziyyətləri çəkərkən inanırdım ki, Allah-təala bir gün mənə xoşbəxtlik nəsib edəcək. Məhz bu, indi olduğum yerə gətirib çıxardı məni. Gələcəyinə inanmayan adam ümidsiz olar". Bu sözləri Şeyxülislam Hacı Allahşükür Paşazadə bir neçə il əvvəl ona həsr edilmiş televiziya verilişində deyib. Çox ibrətamiz sözlərdir. Könlü haqqa bağlı olan valideynlərinin yeganə oğul övladı kimi o, hələ məsum bir uşaqkən sidq ürəklə kainatın tək sahibi Allah-təalanın yolunu tutub, müqəddəs İslama tapınıb, ömrünü və zəkasını sülh və qardaşlıq dininin təbliğinə, insanın ruhunun və mənəviyyatının tədqiqinə həsr edib.

...Doğulub boya-başa çatdığı Lənkəranın Cil kəndindən o vaxt sovetlərin ərazisində İslam dini üzrə təhsil müəssisələrinin yerləşdiyi Özbəkistana gedəndə on yeddi yaşlı Allahşükür Paşazadə özünün iti zəkası və dərin hafizəsi sayəsində Qurani-Kərimi, şəriət tələblərini dərindən öyrənibmiş. Daşkənddə əvvəlcə mədrəsə, sonra da ali ruhani təhsili aldığı müddətdə isə İslamın elmi-nəzəri əsaslarına yiyələnərək Azərbaycana mükəmməl bir ruhani kimi qayıdıb.

* * *

Yeri gəlmişkən, Azərbaycanda İslam dininin tarixi ənənələri arasında şeyxülislamlıq institutunun yaradılması, iki yüz ilə yaxın müddətdə, müəyyən fasilələrlə də olsa, öz mövcudluğunu davam etdirməsi, hazırda dini idarəçiliyin mükəmməl forması, məzhəb birliyinin təcəssümü kimi öz funksiyasını yüksək səviyyədə yerinə yetirməsi mühüm əhəmiyyət kəsb edir. Onu da vurğulamaq lazımdır ki, Qafqazda müsəlmanların dini işlərinin idarə edilməsində ikili ruhani rəhbərliyin aradan qaldırılması və müsəlmanların vahid idarəsinin yaradılması Şərqin ilk demokratik respublikasının - Azərbaycan Xalq Cümhuriyyətinin dövründə baş verib. Şeyxülislamın rəhbər, müftinin müavin olduğu Qafqaz Müsəlmanları İdarəsi məhz həmin vaxtdan Bakıda fəaliyyət göstərir. Bolşeviklər hakimiyyətə gəldikdən dərhal sonra bu idarəni ləğv etsələr də, alman faşizminə qarşı mübarizədə müsəlman dindarların rəğbətini qazanmağa ehtiyac görərək, sovet hökuməti iyirmi dörd il sonra bu təsisatın bərpasına qərar verib. Özündən əvvəlki on bir şeyxülislamın dini idarəçilik ənənələrinin daha da zənginləşdirən Hacı Allahşükür Paşazadə 40 ildir ki, Qafqaz müsəlmanlarının bütün dünyada ehtiramla qəbul edilən həqiqi lideri kimi müqəddəs missiyasını şərəflə yerinə yetirir. Qafqaz Müsəlmanları İdarəsi öz səlahiyyətləri çərçivəsində Azərbaycanda islam dini icmalarına rəhbərliyi, şəriət qayda-qanunlarının düzgün yerinə yetirilməsinə nəzarəti həyata keçirir.

Uca Tanrının bir lütfüdür ki, Şeyxülislam Hacı Allahşükür Paşazadənin qismətinə bu ali dini vəzifəni iki müxtəlif ictimai-siyasi quruluşda - həm sovet hakimiyyəti, həm də müstəqil dövlətçiliyimiz dövründə icra etmək məsuliyyəti düşüb. Azərbaycanda milli-dini şüurun inkişafı ilə yanaşı, həm də müstəqil dövlətçiliyimizin qorunmasında onun çox böyük tarixi xidmətləri vardır.

* * *

Xalqımız öz tarixi taleyinin həm faciəli, həm də qürurverici səhifəsi olan 20 Yanvar hadisələri zamanı dini rəhbərimizin hələ gücünü, qüdrətini itirməmiş sovet dövlətinə, imperiya qüvvələrinə qarşı mübarizədə göstərdiyi böyük fədakarlığı heç vaxt unutmayacaqdır. Onun mənfur Mixail Qorbaçova məktubu fiziki qırğına məruz qalan, amma sınmayan, əyilməyən bir xalqın polad iradəsini və gələcəyə inamını təcəssüm etdirirdi: "... Dinc, namuslu, hamıya dost münasibəti bəsləyən Azərbaycan xalqını kimlərinsə xatirinə qırmaq nə dövlət rəhbərinə, nə də adi bir insana yaraşan hərəkət deyil. Bizi qırmaq olar, əzmək olar, amma sındırmaq olmaz. Mən bütün Azərbaycan xalqının iradəsini ifadə edərək qoşunların Bakıdan təxirə salınmadan çıxarılmasını tələb edirəm. Heç bir xalq ilə, o cümlədən Azərbaycan xalqı ilə silahla danışmaq olmaz. Bu, on gün və ya Əfqanıstandakı kimi on il davam edə bilər, lakin haqq-ədalət əvvəl-axır qələbə çalacaqdır. Nə olursa-olsun, Allah-təalanın köməyi ilə ədalət Azərbaycanda da zəfər çalacaqdır, xalqımızın sovet əsgərlərinin gülləsinə tuş gəlib həlak olmuş oğul və qızları da öz həyatlarını bunun naminə qurban vermişlər". Peyğəmbər yolunun davamçısı, müdrik və uzaqgörən Şeyxülislamın Azərbaycanda haqq-ədalətin qalib gələcəyi barədə əminliklə söylədiyi bu sözlər az sonra həqiqətə çevrildi, gerçək oldu.

Qanlı Yanvarla bağlı bir mühüm məqamı da xatırlamaq olduqca vacibdir. Azadlıq və ədalət tələb edən dinc əhalini güllələbarana tutmaq üçün Bakıya xüsusi hazırlanmış hərbi dəstələr yeridilərkən sovet rəhbərliyi xalqın ali ruhani liderinə siyasi hakimiyyəti də ələ almağı təklif etmişdi. Təbii ki, bu təklifin arxasında Azərbaycanda baş verənləri dünyaya dini radikalizm kimi təqdim etmək, burada törədiləcək cinayətə "islam terroru"na qarşı mübarizə donu geyindirmək məqsədi güdülürdü. Əqidəsinə və mənəviyyatına tamamən yad olan bu təklifi Şeyxülislamın qətiyyətlə rədd etməsi kommunist ideoloqlarının niyyətini puça çıxardı. Amma şəhidlərin - vətənin azadlığı, millətin haqqı uğrunda canını fəda edənlərin dəfninin həm milli adət-ənənəyə, mənəvi dəyərlərə uyğun təşkilində, həm də bu qəhrəman insanların müqəddəsləşdirilməsi və gələcək nəsillər üçün örnəyə çevrilməsi məqsədilə paytaxta xüsusi yerin seçilməsində və ümumxalq ziyarətgahı kimi tanınmasında Hacı Allahşükür Paşazadənin mühüm xidmətləri olub.

* * *

Müstəqil Azərbaycanın Qafqaz regionunda dini mərkəz - müqəddəs İslamın istinadgahlarından biri kimi qəbul edilməsi Şeyxülislamın, onun rəhbərlik etdiyi qurumun fəaliyyəti ilə birbaşa bağlıdır. Postsovet məkanında dinlərarası münasibətləri tənzimləmək üçün 17 il əvvəl MDB Dinlərarası Şurasının yaradılmasının təşəbbüskarlarından olan Şeyxülislam Allahşükür Paşazadə bu qurumun həmsədri olmaqla yanaşı, 10 ilə yaxındır ki, MDB Müsəlmanları Məşvərət Şurasına da sədrlik edir.

Şeyxülislam həzrətləri Azərbaycanda dini-ruhani durumun sabitliyinin təmin edilməsində mühüm və aparıcı rol oynamaqla yanaşı, Qafqaz müsəlmanlarının ali dini rəhbəri kimi təmsil olunduğu bütün qurum və təşkilatlarda bu bölgənin xalqlarının maraqlarını da cəsarətlə qoruyur və onların haqq işini müdafiə edir. Bundan başqa, o, dünyada müsəlman həmrəyliyinə, sülhə və əmin-amanlığa nail olunması istiqamətində fəal iş aparır, müharibə alovlarına bürünən müsəlman ölkələrində müqəddəs ziyarətgahların, qədim tarixi abidələrin mühafizə olunması üçün beynəlxalq təşkilatlar və dövlətlər qarşısında məsələ qaldırır. Biz çox hörmətli dini rəhbərimizin ən yüksək beynəlxalq tribunalarda dinlərarası dialoq və əməkdaşlıq, xalqlar və dövlətlər arasındakı münaqişələrin sülh yolu ilə nizamlanması ideyasını, tolerantlığı daim təbliğ etdiyini görürük. "Müxtəlif dinlərin nümayəndələri tərəfindən Sizə bəslənən xoş münasibətlərlə fəxr etməyə haqqınız var" - Qafqazın dini lideri haqqındakı bu sözlər mərhum Roma papası, ilahiyyat doktoru II İohan Pavelə məxsusdur.

Dünya və region ilahiyyatçılarının böyük rəğbətini və ehtiramını qazanmış möhtərəm şeyxülislam özü də böyük bir ilahiyyatçı alim, islam tarixinin və nəzəriyyəsinin mükəmməl bilicisi, Azərbaycanda bu sahədə dərin elmi araşdırmaların müəllifi və rəhbərlərindən biridir. Tarix elmləri doktoru, Bakı Dövlət Universitetinin professoru olan Hacı Allahşükür Paşazadənin tarix və ilahiyyat elmləri üzrə "Qafqazda islam", "İslamda ümmət və şüubilik", "Quranın təfsiri və tərcüməsi tarixi", "Qurani-Kərimin ilahi hökmləri və öyrənilməsi", "İslamda şəhidlik", "Milli münasibətlər və din", "Qurani-Kərimin ecazkarlığı", "Qurani-Kərimdə insan təbiəti" adlı monoqrafiyaları, elmi əsərləri və çoxsaylı məqalələri müasir islamşünaslığa çox mühüm töhfələrdir.

Onu da qeyd edək ki, Hacı Allahşükür Paşazadənin müasir islam mənəviyyatı tarixində xüsusi yeri olan dəyərli təşəbbüsü təkcə respublikamızın hüdudlarında deyil, bütövlükdə müsəlman aləmində rəğbətlə qarşılanıb. Belə ki, Şeyxülislam həzrətləri Aşura mərasimində icra edilən və xürafat elementi sayılan qançıxarma ənənəsinin sivil və təmənnasız qanvermə aksiyası ilə əvəz edilməsi təşəbbüsünü irəli sürüb. Özünün də şəxsən iştirak etdiyi bu aksiyalar artıq respublikamızda Aşura mərasiminin yeni ənənəsinə çevrilib və irsi qan xəstəliklərindən əziyyət çəkən insanların ehtiyaclarının ödənilməsində əhəmiyyətli rol oynayır.

* * *

Müstəqil Azərbaycanın taleyüklü elə bir məsələsi yoxdur ki, şeyxülislam həzrətlərinin dini-ictimai fəaliyyət dairəsindən kənarda qalsın. Yadımdadır, jurnalistlərdən biri şəxsi həyatda, ictimai-dini fəaliyyətdə qazandığı uğurları, nailiyyətləri əsas gətirərək onun, yəqin ki, özünü xoşbəxt hiss etdiyini soruşarkən Hacı Allahşükür Paşazadə nurlu simasında dərin bir qayğı ilə belə cavab vermişdi: "Qarabağ işğal altında olduqca, biz şəxsi xoşbəxtlikdən danışa bilmərik. Xalqımızın bu probleminin həlli hər bir ailə üçün xoşbəxtlik olar".

Qafqazın xoşbəxt gələcəyinə aparan yol millətlərarası və dinlərarası anlaşmadan, əməkdaşlıqdan, dinc qonşuluq münasibətlərindən, ərazi bütövlüyünün qorunub saxlanmasından keçir. Bölgənin müsəlman əhalisinin ali dini rəhbərinin sülhsevər mövqeyi belədir. Şeyxülislam həzrətləri dəfələrlə bəyan edib ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi təkcə ölkəmizin deyil, bütün Qafqazın ən ağrılı problemidir. Bu münaqişənin həlli yolunda Qafqaz Müsəlmanları İdarəsi ardıcıl, məqsədyönlü əməli işlər aparıb və bu gün də aparmaqdadır. Hacı Allahşükür Paşazadə, dövlətimizin başçısının əsas siyasi xəttinə uyğun olaraq, ədalətli, davamlı sülhün danışıqlar yolu ilə bərqərar edilməsi üçün böyük səylər göstərir. Lakin onun belə bir fikri də ictimaiyyətə yaxşı məlumdur: sülh yolu ilə Qarabağ probleminin ədalətli həlli mümkün olmadığı təqdirdə, torpaqlarımızın geri qaytarılması üçün xalqımızın və dövlətimizin bütün mümkün vasitələrdən istifadə etmək haqqı vardır.

Şeyxülislam Hacı Allahşükür Paşazadə 20 Yanvar faciəsinin, Xocalı soyqırımının ildönümləri, 31 Mart-Soyqırımı Günü ilə bağlı mütəmadi olaraq dünya ölkələrinin dövlət başçıları, parlamentləri və xalqlarına, həmçinin nüfuzlu beynəlxalq təşkilatlara müraciətlər ünvanlayır, onları Ermənistanın Azərbaycana qarşı haqsız təcavüz və vəhşiliklərinə prinsipial hüquqi qiymət verməyə, xalqımızın faciəsinə biganə qalmamağa çağırır.

* * *

Şeyxülislam həzrətləri haqqında tanınmış dövlət xadimləri, ziyalılar, dünyaşöhrətli şəxslər, nüfuzlu insanlar xoş sözlər deyib, onun çoxşaxəli fəaliyyətini dəyərləndiriblər. Biz yalnız iki mötəbər şəxsiyyətin - ulu öndərimiz Heydər Əliyevin və möhtərəm Prezidentimiz İlham Əliyevin fikirlərinə istinad edəcəyik. Xalqımızın siyasi liderləri dini-mənəvi dəyərlərimizin örnək daşıyıcısını, ruhani liderimizi dərin səmimiyyətlə, böyük ehtiramla səciyyələndirib, onun fəaliyyətinə yüksək qiymət veriblər.

Ulu öndər Heydər Əliyev deyirdi: "Azərbaycanın dini rəhbəri bizim müsəlman dinimizi nəinki Azərbaycanda, bütün Qafqazda təmsil edən ən yüksək rütbəli şəxsdir. Əgər Azərbaycanın dini rəhbəri bütün Qafqaz müsəlmanlarının Şeyxülislamı adını alıbsa, demək, bu bizim üçün böyük iftixar hissidir". Müasir Azərbaycan dövlətinin qurucusu olan ulu öndərimiz doğma İslam dinimizin ölkəmizdə öz yerini tapmasında, insanların öz dini etiqadlarını yerinə yetirməsində Qafqaz Müsəlmanları İdarəsinin, şəxsən şeyxülislam Hacı Allahşükür Paşazadənin xüsusi xidmətlərini qeyd edib, vicdan azadlığının təmin olunmasında əldə etdiyi nailiyyətlərə, milli birliyin və həmrəyliyin möhkəmləndirilməsində, inkişaf etməsində göstərdiyi fəaliyyətə görə ona hörmət və ehtiramını bildirib. Heydər Əliyev Qafqaz Müsəlmanlarının 1998-ci ildə Bakıda keçirilən X qurultayındakı nitqində iştirakçılara xitabən deyib: "Çox məmnunam ki, Qafqaz Xalqlarının Ali Dini Şurasına rəhbərlik edən əlahəzrət Şeyxülislam Hacı Allahşükür Paşazadə ötən illərdə öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetiribdir və beləliklə, sizin hörmət-izzətinizi qazanıbdır". Ulu öndər Şeyxülislam həzrətlərinin məkrli hücumlardan qorunması üçün də öz kəsərli sözünü deyib, qətiyyətli mövqeyini ifadə edib, o vaxtlar mətbuatdakı bəzi bədxahların Hacı Allahşükür Paşazadəni gözdən salmaq cəhdlərindən narahatlığını bildirərək, bunu milli mənəviyyatımıza, müstəqil dövlətçiliyimizə zidd hərəkətlər kimi səciyyələndirib. Heydər Əliyev onun Qafqaz Müsəlmanları İdarəsinə rəhbərlik etdiyi illər ərzində bu dini qurumun İslam dəyərlərinin geniş təbliğ olunması, müsəlmanların dini-mənəvi birliyinin möhkəmləndirilməsi, onların cəmiyyətin həyatında fəallığının artırılması işində böyük rol oynayan mühüm mərkəzlərdən birinə çevrildiyini qeyd edib, Şeyxülislam həzrətlərinin Azərbaycan xalqının azadlıq uğrunda mübarizəsində tutduğu əsl vətəndaş mövqeyini onun ölkədə cərəyan edən mürəkkəb ictimai-siyasi prosesləri obyektiv qiymətləndirmək, yaranmış problemlərin həllində dini amilin gücündən düzgün istifadə etmək bacarığını yüksək dəyərləndirib.

Yeri gəlmişkən, möhtərəm Prezident cənab İlham Əliyev ulu öndər Heydər Əliyevlə Şeyxülislam həzrətlərinin şəxsi dostluğunun, qarşılıqlı hörmət və ehtiramının ölkəmizdə dövlət-din münasibətlərinin inkişafına çox böyük təsir göstərdiyini qeyd edərək deyib: "Mən onun şahidiyəm ki, Şeyx həzrətləri və ulu öndər Heydər Əliyev bir-birinə çox yaxın insanlar olmuşlar və onların xalq, Vətən qarşısında gördükləri işlər bugünkü Azərbaycanın uğurlu inkişafına şərait yaratmışdır". Dövlətimizin başçısı təkcə Azərbaycanda və ümumən Qafqazda deyil, bütün beynəlxalq aləmdə geniş tanınan, çağdaş dünyamızın nüfuzlu din xadimləri və dövlət adamları tərəfindən ehtiramla qəbul edilən, böyük hörmətə və nüfuza sahib olan şəxsiyyət kimi Allahşükür Paşazadənin xalqımız və dövlətimiz qarşısında böyük xidmətlər göstərdiyini dəfələrlə bəyan edib. Cənab İlham Əliyev özünün də hörmətli şeyxülislam həzrətləri ilə çox səmimi şəxsi dostluq münasibətlərindən daim məmnunluğunu bildirir, "bu dostluq həm bizim üçün, həm də, eyni zamanda, ölkəmiz üçün lazımdır", - deyir.

Dövlətimizin başçısı bu il mayın 23-də müqəddəs Ramazan ayı münasibətilə şeyxülislam həzrətlərinin öz iqamətgahında təşkil etdiyi ənənəvi iftar süfrəsində çıxış edərkən bir daha bu böyük din xadiminin fəaliyyəti barədə öz ürək sözlərini söyləyib. "Şeyx həzrətləri həm Azərbaycanda, həm Qafqazda, həm də dünyada böyük nüfuza malik görkəmli din xadimidir və Azərbaycanı dünyada öz dəyərlərinə sadiq, eyni zamanda, müasir, tolerant ölkə kimi təqdim edir," - deyən cənab İlham Əliyev onun çoxşaxəli və uğurlu beynəlxalq fəaliyyətinin Azərbaycanı dünyaya tanıtdırdığını, ölkəmizi gücləndirdiyini qeyd edib.

İstər ulu öndər Heydər Əliyevlə, istərsə də onun layiqli davamçısı cənab Prezident İlham Əliyevlə şeyxülislam həzrətlərinin şəxsi dostluq münasibətləri müasir dövrdə dövlət-din münasibətlərinin ən uğurlu örnəyi kimi bir çox ölkələr üçün nümunə ola bilər.

* * *

Xalqımızın müdrik oğlunun, Qafqazın nüfuzlu Şeyxülislamının ictimai fəaliyyəti geniş və çoxşaxəlidir. Həm sovet hakimiyyəti, həm də Azərbaycanın müstəqilliyi dövründə o, müxtəlif yerli və beynəlxalq təşkilatlarda yüksək və məsul vəzifələrə seçilib, ən mötəbər tədbirlərin təşkilatçısı və aparıcısı olub. Millət vəkili kimi qanunvericilik orqanında dindar, mömin həmvətənlərimizin sözünü deyib, mövqeyini ifadə edib. Onun çoxcəhətli və səmərəli fəaliyyəti Azərbaycanda və onun hüdudlarından kənarda yüksək qiymətləndirilib və mükafatlandırılıb. Hacı Allahşükür Paşazadənin müstəqil dövlətimizin "Şöhrət", "İstiqlal", "Şərəf" ordenləri ilə, həmçinin, Misirin I dərəcəli "Əl-elm və əməl", Çeçenistan Respublikasının "Millət qəhrəmanı", Rus Pravoslav Kilsəsinin I dərəcəli "Müqəddəs Vladimir", Çeçenistan Respublikasının "Çeçen qəhrəmanı", Gürcüstan Respublikasının "Şərəf", Rus Pravoslav Kilsəsinin I dərəcəli "Sergi Radonejski", Vatikanın "Müqəddəs Qreqori", Rusiya Federasiyasının "Dostluq", İordaniya Krallığının I dərəcəli "Kral Hüseyn" ordenləri ilə təltif edilməsini xatırlatsaq, onun xidmətlərinin miqyasını və dəyərini ifadə etmiş olarıq.

Və bir mühüm məqamı da yada salmaq yerinə düşər: Qafqaz müsəlmanlarının 2003-cü ilin 29 iyulunda keçirilən XI qurultayı Şeyxülislam Hacı Allahşükür Paşazadəni Qafqaz Müsəlmanları İdarəsinin ömürlük sədri seçib. Bu misilsiz etimadı öz həyatı və fəaliyyəti ilə şərəflə doğrultmaq üçün Allah-təala əziz dini liderimizə uzun ömür versin!

Builki Ramazan bayramında Şeyxülislam həzrətləri cənab Prezident İlham Əliyevə xitabən belə bir diləyini dilə gətirib: "Allah-təala Sizin rəhbərliyinizlə müzəffər ordumuzun əzəli torpaqlarımıza zəfər bayrağı sancmasını görməyi bizlərə nəsib etsin, İnşallah!"

Din və mənəviyyat adamı, nüfuzlu İslam alimi, xalqımızın iftixarı olan Şeyxülislam Hacı Allahşükür Paşazadəni yubiley münasibəti ilə təbrik edərək, ona xalqımızla birlikdə bu zəfərin şahidi olmağı arzulayırıq!

**Möhtərəm RƏCƏBOVA,**
**"Respublika".**